NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

# RİSALƏ

## *Elmi araşdırmalar jurnalı*

# 2-(25)2023



**Bakı – "Elm və təhsil" – 2023**

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Elmi Şurasının 14 sentyabr 2023-cü il tarixli (protokol №4)**
**qərarı ilə çap olunur**

*Baş redaktor:*
**Rafael Hüseynov,**
***akademik***

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Xatirə Başirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan**
**Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan**
**Paşa Kərimov, filologiya üzrə elmlər doktoru, dosent, AMEA Əlyazmalar İnstitutu, Azərbaycan**
**Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə**
**Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ**
**Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya**
**Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ**
**Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya**
**Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ**
**Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya**
**Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,**
**Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası**
**Şodimaxammad Sufiyev, filologiya üzrə elmlər doktoru, professor,**
**Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan**
**Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan**
**Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan**
**Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan**
**Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya**

**Risalə. Elmi araşdırmalar jurnalı. № 2 (25)**
**Bakı, "Elm və təhsil" nəşriyyatı, 2023, 136 s.**

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər "risalə" adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə "Risalə" adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir. "Risalə" elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

**© Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2023**

# Oxuyacaqlarınız



# RİSALƏ
## *Elmi araşdırmalar jurnalı*

*№ 2. 2023(25)*

## Mündəricat

**KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ**

*HÜSEYNOV Rafael.*
Nizami Gəncəvinin "Xəmsə"sində türk qatı və türk milli kimliyi düşüncələri
doi.org/10.30546/2702-0034.2023.2.25.7

*QAYIBOV Seyran.*
Yarımçıq hekayə: Əmin Abidin "Həsrət ili" hekayəsinin transliterasiyası və təhlili
doi.org/10.30546/2702-0034.2023.2.25.30

*SADIQOVA Rəhilə.*
Zərif hami, səxavətli fədai: Həmidə Cavanşir-Məmmədquluzadə
doi.org/10.30546/2702-0034.2023.2.25.41

**YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES**

*ƏSƏDULLAYEVA Nuranə.*
Tarixi həqiqət və bədii gerçəklik
doi.org/10.30546/2702-0034.2023.2.25.51

*HEYDƏROVA Sevinc.*
Azərbaycan yazıçılarının qurultayları, ədəbi müzakirələr və tədbirlər
"Ədəbiyyat və incəsənət" qəzetinin səhifələrində
doi.org/10.30546/2702-0034.2023.2.25.57

*XƏLİLOVA Güllü.*
Sabir Rüstəmxanlının 44 günlük Vətən müharibəsinə həsr etdiyi "Qarabağa dönüş" poeması
doi.org/10.30546/2702-0034.2023.2.25.71

*MUSAYEVA İradə.*
İsa Muğannanın roman yaradıcılığında yeni ədəbi estetika və fəlsəfi düşüncə motivləri
doi.org/10.30546/2702-0034.2023.2.25.84

*MUXTAROVA Dinara.*
Художественная литература и публицистический жанр: глобальные
проблемы публицистики XXI века
doi.org/10.30546/2702-0034.2023.2.25.101

**TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN QORUNMASI VƏ TƏDQİQİ. MUZEYŞÜNASLIQ**

*ƏLİYEVA Nailə.*
Nizami muzeyinin UNESCO əhəmiyyətli eksponatı
doi.org/10.30546/2702-0034.2023.2.25.117

*YAQUBƏLİ Rəhimə.*
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində keçirilən yubiley
mərasimləri və yaradıcılıq gecələri
doi.org/10.30546/2702-0034.2023.2.25.122

*Risalə. Elmi araşdırmalar jurnalı.*
https://doi.org/10.30546/2702-0034.2023.2.25.51
*№2.2023(25) 51-56*

**Nuranə ƏSƏDULLAYEVA**
**Filologiya üzrə fəlsəfə doktoru**
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**x_nura_x@list.ru**
**ORCID ID: 0000-0003-2234-7956**

# TARİXİ HƏQİQƏT VƏ BƏDİİ GERÇƏKLİK

**Açar sözlər:** 1950-1960-cı illər, Azərbaycan ədəbiyyatı, ideoloji konturlar, tarixi həqiqət, bədii gerçəklik

**Keywords:** 1950-60s years, Azerbaijan literature, ideological contours, historical truth, artistic reality

**Ключевые слова:** 1950-1960-е годы, Азербайджанская литература, идеологические контуры, историческая правда, художественная реальность

**Giriş.** Zaman dəyişdikcə sosialist realizminin hadisəyə yanaşma və təsvir metodları da dəyişir və yeniləşirdi. Lakin bu yeniləşmə həmişə bədii düşüncənin xeyrinə olmurdu. Çox zaman forma d əyişsə də, məzmun dəyişmir, bir cilddən başqa cildə girirdi; yəni keçmişin ədəbiyyata münasibəti tənqid olunsa da, oxşar, ancaq fərqli meyarlar tətbiq edilirdi. 60-cı illərdə tarixi həqiqətlə bədii gerçəkliyin münasibətindəki dəyişiklik, bu dəyişiklikdəki qismən mütərəqqilik siyasi proseslərdən qaynaqlanırdı. Lakin burada da siyasi rejim hadisələrə düzgün istiqamət vermirdi; indiyədək siyasi sistemin gətirdiyi fəlakətləri ayrı-ayrı şəxsiyyətlərin – İ.Stalinin, L.Beriyanın və onun tərəfdaşlarının adına yazmaqla siyasi sistemi təmizə çıxarırdı. “Şəxsiyyətə pərəstiş” problemi də məhz buna görə qaldırılmışdı. Mövcud hakimiyyət siyasi sistemi xilas etmək üçün bəzi yumşalmalara da getməyə məcbur olmuşdu.

**Qarşıya qoyulan ideoloji tələblər.** Bütün bunlara baxmayaraq, demək olmaz ki, partiya və dövlət funksionerləri öz əlini ədəbiyyatdan çəkmişdi. Əksinə, siyasi rejim yenə də ədəbiyyatı öz nəzarəti altında saxlamağa çalışır, onu yönləndirir və müxtəlif yollarla “tapşırıqlar” verirdi. Bu nəzarət əvvəlki kimi sərt, açıq şəkildə olmasa da, forması dəyişmişdi. Bu cür yönləndirmələr, tapşırıqlar partiyanın Mərkəzi Komitəsinin müşavirələrində səsləndirilir, yaradıcı təşkilatlar haqqında qərarlar verilir, bu qərarlar dövlət qəzetlərində çap olunur, bədii təşkilatlara göndərilir, burada müzakirələr olunur, müzakirələrin nəticələri Mərkəzi Komitədə geniş surətdə təhlil edilirdi.

1956-cı ilin dekabrında Mərkəzi Komitənin siyasi təşkilatlara ünvanlanmış “Partiya təşkilatlarının kütlələr arasında siyasi işinin gücləndirilməsi və antisovet düşmən ünsürlərinin hücumlarının yatırılması” haqqında məktubu əsasında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyəti tərəfindən eyniadlı fərman imzalandı. Fərmanda ədəbiyyat və incəsənət sahəsinə də toxunulurdu: “Son vaxtlar ayrı-ayrı ədəbiyyat və incəsənət işçiləri arasında partiya vəzifələrindən sıyrılan, siyasi cəhətdən yetişməmiş sıravi düşüncəli şəxslər arasında sovet ədəbiyyatı və incəsənətinin inkişafında partiya xəttinin düzgünlüyünü şübhə altına almaq, prinsipiallıqdan uzaqlaşmaq cəhdləri müşahidə olunur, sosialist realizmini prinsipsiz sənət mövqeyinə qaldıraraq ədəbiyyatı və incəsənəti partiya

rəhbərliyindən "azad etmək", burjua-anarxist, fərdiyyətçilik ruhunda başa düşülən "yaradıcılıq azadlığını" təmin etmək tələblərini irəli sürməyə başladılar" [8, s.145-146]. Tezliklə bu fərman bütün respublikalara və partiya nümayəndələrinə göndərilir. Beləliklə, ideoloji sapmalara qarşı mübarizə ictimai xarakter almağa başlayır.

N.Xruşşovun İ.Stalini "şəxsiyyətə pərəstiş" suçlandırmalarından sonra da ədəbiyyata münasibət eyni dərəcədə davam edirdi. Bunu N.Xruşşovun bir çıxışında da aydın şəkildə görmək olar. İ.Stalin şəxsiyyətinə pərəstişi kəskin tənqiddən sonra bir çox sənət adamlarının irəli getməsi onu bir rəhbər kimi narahat etdiyindəndir ki, çıxışlarının birində ayrı-ayrı ziyalıların öz "başlarını itirməsi"ndən, "daha da "irəliyə getməsi"ndən bəhs edirdi. Onun fikrincə, şəxsiyyətə pərəstişin tənqid edilməsini bəziləri səhv başa düşmüş və onlarda "səndələmələrə və tərəddüdlərə" səbəb olmuşdur: "Onlar bu tənqidi partiyamızın və ölkəmizin həyatında İ.V.Stalinin müsbət rolunu başdan-başa inkar etmək şəklində izah etməyə çalışdılar və sosializmin qələbəsi uğrunda xalqımızın mübarizə tarixində qəsdən yalnız kölgəli cəhətlər və səhvlər axtarmaq kimi yanlış bir yol tutaraq sosializm quruculuğunda sovet ölkəsinin ümumdünya tarixi müvəffəqiyyətlərinə laqeydlik göstərməyə başladılar" [1, s.1].

Baş məqalədə Vladimir Dudintsevin "Yalnız çörəklə deyil" adlı kitabı, eləcə də "Unudulmaz 1919-cu il", "Kuban kazakları" filmləri də kəskin tənqid olunurdu. V.Dudintsevin "Yalnız çörəklə deyil" əsəri böhtançı adlandırılır və bu əsəri dərc edən "Novıy mir" jurnalı da kəskin tənqid olunurdu. 1956-cı ildə Moskvada nəşrə başlayan, lakin senzura səbəbindən yalnız cəmi iki sayı işıq üzü görən "Literaturnaya Moskva" almanaxı, həmçinin almanaxın redaksiya heyətində yer alan şairə Marqarita Aliger də həmin əsər haqqındakı mövqeyinə görə kəskin tənqidə məruz qalırdı. Bu isə o demək idi ki, hələ partiya və siyasi sistem ideoloji əlini ədəbiyyatın üzərindən çəkməmişdi. Məqalədə ədəbiyyat və incəsənət sahəsindəki ideya mübarizəsinin sərhədlərini müəyyənləşdirməyə və yazıçılara yol göstərməyə çalışılırdı: "İndi ədəbiyyat və incəsənət sahəsində ideya mübarizəsinin mürəkkəbliyi və xüsusiyyəti bir də ondan ibarətdir ki, biz ədəbiyyat və incəsənəti təkcə xaricdən olan hücumlardan deyil, habelə ayrı-ayrı yaradıcı işçilərin ədəbiyyat və incəsənəti düzgün olmayan yola salmaq, inkişafın başlıca xəttindən uzaqlaşdırmaq cəhdlərindən də müdafiə etməli oluruq" [1, s.1]. Göründüyü kimi, məzmun eyni olsa da, forma və metodlar başqa idi. Bu yolla ideologiya ədəbiyyatı öz əlində saxlamağı və onların yaradıcılığına nüfuz etməyi düşünürdü.

**Milli düşüncə və ədəbi proses.** 1950-ci illərin ortalarından sovet cəmiyyətində başlayan islahatlar siyasi və ictimai həyatda böyük bir rezonans doğurdu. Ümumittifaq miqyasında gedən ictimai-siyasi hadisələrlə yanaşı, Azərbaycanda baş verən milli gəlişmələr də ədəbi prosesə öz təsirini göstərirdi. Yazıçı Mirzə İbrahimovun "Azərbaycan dili dövlət idarələrində" adlı məqaləsində dilin yeni statusu tarixi və bugünkü funksiyası ilə təhlil edilir və müəyyən qənaətlərə gəlinirdi. Tarixə ekskurs edən M.İbrahimov "hakim millətin, "böyük" millətin məzlum millətə, "kiçik" millətə göstərdiyi hər hansı təzyiqin" ancaq "nifrət və nifaq" duyğuları oyatdığını açıq şəkildə bildirir və "əzilən millətin intiqam" hissini alovlandırdığını qeyd edirdi: "Çarizm qeyri-rus xalqları ən kobud və vəhşi jandarm üsulu ilə əzir, həyasızcasına "ruslaşdırmaq" siyasəti aparırdı, milli mədəniyyətlərə və milli dillərə qarşı təcavüzkar hərəkət edirdi, hətta milli qırğınlar törətməkdən belə çəkinmirdi. Başqa xalqları əzib məhv etmək və imperiyanın daxilində "əritmək" məqsədilə çarizm ucqarlara zorla rusları köçürürdü. Çarizm bu vəhşi siyasəti ilə böyük rus

xalqını bədnam edir, təbii olaraq imperiyanın əzilən xalqlarının ürəyində ona qarşı etimadsızlıq oyadırdı” [5, s.2].

Bir neçə ildən sonra bu şikayətlər öz “bəhrəsini” verir, əvvəlcə Mirzə İbrahimov Ali Sovetin sədri, daha sonra İmam Mustafayev respublika rəhbərliyindən, Sadıq Rəhimov isə Nazirlər Sovetinin sədri vəzifəsindən azad edilirlər. Burada bir yaradıcı, yazıçı kimi ən böyük zərbə Mirzə İbrahimova dəyir. Ona millətçi damğası vurulur, işdən çıxarılır, bir müddət heç yerdə iş, iclaslarda çıxış üçün söz verilmirdi. Şair Mirvarid Dilbazi M.İbrahimovun bu çətin dövrü haqqında yazırdı: “Mirzə müəllimin ikinci iztirabı “milli dil” deyənin dili kəsildiyi illərdə Azərbaycan dilinin dövlət dili olması, dərhal idarələrdə Azərbaycan dilinə keçilməsi sahəsindəki fəaliyyəti oldu. Bu fəaliyyət Azərbaycanda böyük, gəlirli vəzifə tutub Azərbaycan dilini bilməyənlər arasında top mərmisi kimi partladı. Onların teleqramları Mərkəzdə ali idarələrə yağış kimi yağdı. Mirzə müəllimin indiki ittihamı əvvəlkindən betər oldu: indi o, “azğın, satqın, millətçi” kimi cəzalandı. Onu Ali Sovetin sədri vəzifəsindən azad etdilər, bir müddət işsiz qaldı, qələmə sığındı” [3, s.125].

Ancaq buna baxmayaraq, Azərbaycan dili uğrunda ziyalıların başlatdığı və rəhbərlərin də həyata keçirdiyi bu hərəkatın ümumən ədəbi-bədii, mədəni mühitə çox böyük təsiri olur. Bu hadisələr kontekstində cəmi bir neçə il əvvəl “Kitabi-Dədə Qorqud” dastanına qarşı qaldırılan qadağanın aradan götürülməsi istiqamətində işlər başlayır. Məlumdur ki, 1951-ci ildə şovinistlərin etirazlarına uyğun olaraq “Kitabi-Dədə Qorqud” dastanı qadağan edilmiş və pantürkist, panislamist bir əsər olaraq damğalanmışdı.

1950-ci illərin sonlarında milli düşüncənin özünüdərk mərhələsinə gəlməsi və bir neçə hadisədə uğur qazanması ədəbi prosesi bir qədər canlandırdı. Repressiya xofu artıq zəifləmişdi. Mirzə İbrahimov nümunəsində işdən çıxarılma və bəzi sıxıntılı məqamların olmasına baxmayaraq, milli məsələ yazıçıların da əsərlərində alt qatda, gizli şəkildə təsvir edilirdi. Bu illərdə Mikayıl Rəfiliyə qarşı hücumların mərkəzində də milli düşüncəli ziyalılara qarayaxma kampaniyası dururdu. 1952-ci ildə bu görkəmli ədəbiyyatşünasın “Ən qədim dövrlərdən müasir mərhələyədək Azərbaycan ədəbiyyatı oçerkləri” mövzusunda yazdığı dissertasiya işinin ləğv edilməsi barədə Moskvaya, Ali Attestasiya Komissiyasına məktub göndərilmişdi. Məktubda M.Rəfilinin dissertasiya işinin başlıca qüsuru kimi Azərbaycan ədəbiyyatı tarixinin tədqiqinə qeyri-marksist mövqedən yanaşması, panislamist və pantürkistlərə baş əyərək onların idealist fikirlərinə üstünlük verməsi, müridizmi müdafiə etməsi və sovet aliminə xas olmayan hallara yol verdiyi qeyd edilirdi. Məsələ bununla bitmir, onun yaradıcılığı Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Elmi Şurasında müzakirə olunur. Müzakirədə iştirak edən əksər alimlər onun “Ən qədim dövrlərdən müasir mərhələyədək Azərbaycan ədəbiyyatı tarixinin oçerkləri” əsərini tənqid etmişlər. Bütün bunlara Mircəfər Bağırovun “Rəfilinin 8 il bundan qabaq müdafiə etdiyi dissertasiyanı ləğv etmək Azərbaycan elminə şərəf gətirməz” [6, s.125] dərkənarı ilə son qoyulur.

Bu illərdə tarixi hadisələrə münasibətdə yeni paradiqmalar ortaya çıxırdı. Gülüstan və Türkmənçay müqavilələri xalqa sülh müqaviləsi kimi təbliğ edilərkən 1950-ci illərin milli özündərk prosesi kontekstində Bəxtiyar Vahabzadənin “Gülüstan” poeması yazılır. Fikrimizcə, “Gülüstan” poemasının yazılması səbəblərindən biri də Azərbaycanda gedən bu milli özünüdərk prosesi idi. B.Vahabzadə 1958-ci ildə “Gülüstan” poemasını yazaraq tarixi gerçəkliyə bədii həyat verməyə

çalışmışdır. Poemada “Gülüstan” müqaviləsi ilə Azərbaycanın ikiyə parçalanması, işğal faktı təsvir edilir. 52 bənddən ibarət olan və vahid süjet xəttinə malik olmayan poemada XIX əsrin əvvəlləri Rusiyanın Azərbaycanın ayrı-ayrı xanlıqlarını zəbt etməsi və daha sonra bu prosesin “Gülüstan” müqaviləsi ilə yekunlaşması təsvir edilir. Poema əlyazma şəklində mədəni mühitdə geniş yayılır. Şair isə bu əsəri yalnız Şəki rayonunda nəşr edilən “Nuxa fəhləsi” qəzetində çap etdirə bilir. Lakin çox keçmir ki, müəyyən dairələr bundan xəbər tutur, qəzetin redaktoru ciddi partiya cəzası alır. Ancaq Ümummilli Lider Heydər Əliyevin köməyi ilə şair xilas olur. Akademik Rafael Hüseynov bu barədə yazır: “Heydər Əliyev Bəxtiyar Vahabzadəyə məsləhət görmüşdü ki, bir müddət auditoriyalarda görünməsin, uzunmüddətli elmi məzuniyyət götürərək doktorluq dissertasiyasını yazsın.

Bu məsləhətə əməl etdi şair və nə universitetdəki işindən çıxarıldı, nə partiyadan kənarlaşdırıldı. Qısa müddətdə “Səməd Vurğunun həyat və yaradıcılığı” adlı doktorluq dissertasiyasını yazıb tamamladı, zəruri prosedur və müzakirələrdən sonra 1964-cü ildə uğurla müdafiə də elədi” [4, s.4].

Sonuncu ideoloji yanaşmalardan biri yazıçı Vidadi Babanlının yaradıcılığı ilə bağlı olumuşdur. V.Babanlı “Vicdan susanda” romanını 60-cı illərdə yazmağa başlamış və hissə-hissə “Azərbaycan” jurnalında dərc etdirmişdir. Yazıçı “Vicdan susanda” romanına görə bir müddət işlədiyi Yazıçılar İttifaqından çıxarılmış, dörd il heç bir əsəri çap olunmamış, yalnız Moskvaya şikayət etdikdən sonra işə düzələ bilmiş və əsərləri dərc edilmişdir. Bu barədə yazıçı müsahibələrinin birində deyir: “O vaxt “Vicdan susanda” əsərinə görə məni partiyadan çıxarırdılar. Dörd il məni işsiz qoydular. Əsər Moskvada çap olunandan sonra məndən əl çəkdilər. Roman 1979-1980-ci illərdə dalbadal 100 min tirajla çap olunub. Azərbaycan dilində də dəfələrlə nəşr edilib” [7]. Yazıçı “Gizlinlər” romanında da bu barədə ətraflı bəhs etmişdir.

**Nəticə.** Beləliklə, 60-cı illərdə bədii düşüncənin əvvəlki siyasi-ideoloji xətt üzrə inkişaf etdiyini söyləmək çətindir. Ədəbiyyatşünas Bədirxan Əhmədovun yazdığı kimi: “60-cı illərdə sosrealzim xeyli dərəcədə zəifləsə də, mövcudluğunu qoruyub saxlayırdı. Ölkənin siyasi olimpində və milli respublikalarda gedən proseslər ona müəyyən zərbə vursa da, hələ onu qoruyub saxlayan siyasi sistem qalırdı. Bu sistem bəzən yenə də ədəbiyyata sistemin ideya generatorunun təbliğat vasitəsi kimi baxırdı. Dərc olunan bir çox bədii materiallar ədəbi inkişafa yox, şablona, total zövqə, stereotipə xidmət etmiş olurdu. Təfəkkür ətaləti bir çox sahələrdə olduğu kimi, ədəbi-bədii sahədə də davam edirdi” [2, s.439].

Ancaq həm ümumittifaq ədəbi prosesində gedən proseslər, həm dünya ədəbiyyatı ilə tanışlıq, həm də yeni düşüncə bunun qarşısını kəsirdi. Artıq yuxarıdan gələn direktivlərin ədəbiyyata təsir imkanları azalmış, yazarların üzərindən repressiya xofu çəkilmişdi.

Əlaqə
E-mail: **x_nura_x@list.ru**

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Ədəbiyyat və incəsənətin xalqın həyatı ilə sıx əlaqəsi uğrunda. "Ədəbiyyat və incəsənət" qəzeti, 1957, 31 avqust, s.1
2. Əhmədov, B. XX yüzil Azərbaycan ədəbiyyatı. Mərhələlər, problemlər, istiqamətlər. Bakı: "Elm və təhsil", 2015, 576 s.
3. Dilbazi, M. Mirzə İbrahimov fenomeni: həyatın oğlu işsiz qaldı, qələmsiz qalmadı.// Mirzə İbrahimov: müasirlərinin xatirələrində. Bakı: "Elm", 2008, 558 s.
4. Hüseynov, R. Bəxtiyar Vahabzadənin arzuladığı bəxtiyar gələcək. IV hissə, 2017, 3 avqust, s.4
5. İbrahimov, M. Azərbaycan dili dövlət idarələrində. "Kommunist" qəzeti, 1956, 26 oktyabr
6. Teyyub, Q. Həqiqət olduğu kimi (təkrar nəşr.) Bakı: "Adiloğlu", 2011, 140 s.
7. Vidadi Babanlı: "Mirzə İbrahimov məni partiyadan çıxartdırmaq istəyirdi" – Müsahibə. 2021, kulis.az. https://kulis.az/xeber/senet/colorredVidadi-Babanli:color-%22Mirz-Ibrahimov-mni-partiyadan-cixartdirmaq-istyirdi%22-colorredMusahibcolor-39080
8. Пихоя, Р.Г. Советский Союз: история власти. 1945-1991. Новосибирск, "Сибирский хроногроф", 2000, 684 стр.

**Məqaləyə istinad:** Nuranə Əsədullayeva. Tarixi həqiqət və bədii gerçəklik. Risalə. Elmi araşdırmalar jurnalı. Nömrə 2 (25), 2023. səh.51-56.
DOİ: 10.30546/2702-0034.2023.2.25.51

***Nurana ASADULLAYEVA***

## HISTORICAL TRUTH AND ARTISTIC REALITY

***Summary***

The reforms carried out in Soviet society since the mid-1950s began to manifest themselves in the humanitarian field, especially in the literary one, as well as in socio-political life. Although the ideology weakened the control over literature to a certain extent, it did not want to lose control completely. On the one hand, it was related to preserving the political system in any case, and on the other hand, adapting to a new era and new stage. Though the ideological pressure on the writer was not as harsh and sharp as in the 1930s and 1950s, it continued in one way or another in the 1960s. The political system required the literature to be propagated by the criteria of existing ideology and control over literature was carried out through "Glavlit" – "General Directorate for Literature and Publishing Affairs". Literary examples that did not meet the requirements were either subjected to Glavlit's scissors or were analyzed and measured at the Writer's Union plenum, as well as at the meetings of the Central Committee.

On the other hand, the events taking place on a broad scale of the whole Union caused a certain revival in Azerbaijani literature. The struggle for the Azerbaijani language and the removal of the ban on the "Kitabi Dede Gorgud" epic did not remain unaffected concerning the literary environment and literary process. In that period when Repression fear was decreased, writers began to include issues of national thought and national self-awareness in their works.

*Нурана АСАДУЛЛАЕВА*

## ИСТОРИЧЕСКАЯ ПРАВДА И ХУДОЖЕСТВЕННАЯ РЕАЛЬНОСТЬ

***Резюме***

Реформы, проводимые в советском обществе с середины 1950-х годов, стали проявляться в гуманитарной сфере, в частности в области литературы, а также в общественно-политической жизни. Идеология, хотя и ослабела в определенной степени контроль над литературой не хотелось утрачивать полностью. С одной стороны, это было связано с сохранением в любом случае политической системы, а с другой – с адаптацией к новой эпохе, новому этапу. Хотя и не в такой жесткой и острой форме, как в 1930-50-е годы, идеологическое давление на писателя продолжалось в той или иной форме и в 1960-е годы. Политическая система требовала, чтобы литература пропагандировалась в соответствии с критериями существующей идеологии, а контроль над литературой осуществлялся посредством «Главного управления по литературе и издательскому делу», которое в то время называлось «Главлит». Также в связи с этим партийные и административные органы пытались различными способами воздействовать на творческие организации, например, через основную статью, пленум, съезд и другие средства. Литературные образцы, не соответствующие требованиям, либо подвергались ножницам Главлита, либо анализировались и измерялись на пленуме Союза писателей, а также на заседаниях Центрального Комитета.

С другой стороны, события, происходившие в широком масштабе, в масштабах всего союза, вызывали определенное оживление в азербайджанской литературе. Борьба за азербайджанский язык, снятие запрета на эпос «Китаби-Деде Горгуд» не остались незатронутыми в отношении литературной среды и литературного процесса. В этот период, когда страх репрессий уменьшился, писатели стали включать в свои произведения вопросы национальной мысли и национального самосознания.